UOT 94(479.24)

GÜLSÜM TAĞIZADƏ
Qərbi Kaspi Universitetinin magistrantı
gulsumtagizade9@gmail.com

NADİR ŞAHIN ORDUSU: XVIII ƏSRİN ƏN GÜCLÜ HƏRBİ QÜVVƏSİ

DOI: https://doi.org/10.36719/2708-065X/109/28-33

XVIII əsrin ən parlaq və güclü hərbi liderlərindən biri olan Nadir şah Əfşar (1688-1747) güclü iradəsi ilə bütün dünyaya meydan oxuya bilən böyük bir ordu yaratmağa nail olaraq tarixə adını yazdıran böyük şəxsiyyətlərdən biridir. Nadir şah Əfşarın hərbi fəaliyyəti Baba Əli Bəyin xidmətində olduğu zaman başlamışdır. Səfəvilər dövlətinin zəiflədiyi bir zamanda Nadir xan Əfşar hərbi bacarığı sayəsində xarici düşmənlərə qarşı mübarizə aparmaq məqsədilə qüdrətli bir ordu qura bildi. Hakimiyyəti də tam olaraq ələ keçirən Nadir Əfşarlar nəslinin hökümdarı olaraq müasiri olduğu dövrün hərbi taktika və strategiyalarını yaxşı mənimsəmiş, ordusunu zamanın ən təsirli və güclü hərbi qüvvələrindən birinə çevirə bilmişdi. Onun İraqda, Mərkəzi Asiyada, Qafqazda və Hindistanda apardığı hərbi müharibələr hərbi dahiliyini sübut etmək üçün əla imkanlar yaratmışdır. Nadir şah Əfşarın hərbi taktikasının uğurla nəticələnməsinin səbəbi ərazi kəşfiyyatı, döyüş zamanı qoşunların nizamlı manevrləri, uğurlu taktikalardan istifadə etməsi, lazımlı qüvvələrin strateji olaraq düzgün mövqeyi idi. Məqaləmizdə son dövrün araşdırma əsərlərinə də müraciət edərək, analiz və təhlil və müqayisə metodlarından istifadə edilərək Nadir şahın ordusunun strukturu, döyüş taktikaları və müharibə strategiyası ətraflı şəkildə tədqiq edilmişdir.

Açar sözlər: Nadir şah Əfşar, Ordu, Hərbi strategiya, Liderlik.

Giriş. Müasir dövrdə şərqdə davam edən müharibələrdə orduların strateji taktikalarını düzgün müəyyən etməsində tarixi təcrübənin öyrənilməsini vacibliyi nəzərə alınaraq araşdırılmağa ehtiyac duyulan mövzulardan birinin də Müsəlman türk tarixində zəfərlə nəticələnən müharibələrlə yadda qalan Nadir şah Əfşarın ordu quruculuğu strategiyası mövzusudur.

Qeyd etmək lazımdır ki, orta əsrlərdə Şərq müsəlman türk ordu strategiyaları əsasən köçəri türk xalqlarının hərbi ənənələri ilə müsəlman hərbi doktrinasının sintezindən formalaşmışdır. Bu dövrdə müsəlman türk ordularının əsas xüsusiyyətləri aşağıdakılardır:

1.Süvarilər: Türklər ənənəvi olaraq atlı döyüşçülərlə tanınırdılar. Bu süvarilər çevik, sürətli və taktiki cəhətdən üstün idilər. Onlar hücum və geriçəkilmə taktikasından istifadə edərək düşməni zəiflədirdilər.

2. Oxatanlar: Türk ordularında oxçuluq mühüm yer tuturdu. Xüsusilə, at üstündə oxatanlar döyüş meydanında böyük taktiki üstünlük qazandırırdılar. Bu strategiya düşməni uzaq məsafədən zəiflədib döyüş gücünü azaldırdı.

3. İntizam və təşkilat: Ordu içərisində ciddi intizam və dəqiq bölünmüş struktur mövcud idi. Məsələn, Səlcuqlular və Osmanlılar dövründə hərbi idarəetmə çox yaxşı təşkil olunmuşdu. Ordu bölmələri arasında koordinasiya yüksək səviyyədə idi və baş komandanın əmrini dərhal yerinə yetirirdilər.

Nadir Şah, XVIII əsrin ən tanınmış və güclü hərbi liderlərindən biri olub, onun ordusu dövrünün ən təsirli hərbi qüvvələrindən biri kimi tanınır. Nadir Şahın ordusunun əsas xüsusiyyətləri arasında mükəmməl təşkilatlanma, yüksək döyüş hazırlığı və döyüş taktikalarının effektivliyi yer alır. Ordusunun tərkibi müxtəlif etnik qruplardan ibarət idi, buna görə də Nadir Şah müxtəlif bölgələrdən gələn döyüşçüləri bir araya gətirərək güclü bir birlik yaratmışdı. Nadir Şah, həmçinin yeni texnologiyalar və müasir silahlar istifadə edərək ordusunun müasir döyüşlərə uyğunlaşmasını təmin etdi.

Bu gün Nadir Şahın ordusu, tarixi hərbi strategiyalar və liderlik nümunələri üçün araşdırmaların mövzusu olaraq qalır. Ümumilikdə, Nadir Şahın ordusu, dövrünün müharibə taktikaları, təşkilatı və liderlik xüsusiyyətləri ilə XVIII hərbi tarixində mühüm bir yer tutmaqdadır.

Əsas hissə. Nadir şah öz dövrünün liderləri ilə müqayisədə qeyri-adi bir lider kimi qiymətləndirilə bilər. Şəxsi xarakteri, hərbi bacarığı ilə tabeliyində olanlar üçün nümunəvi bir şəxsiyyət idi. Tədqiqatçıların əksəriyyəti tərəfindən də o, tarixdəki qeyri-adi hərbi liderlərdən biri kimi tanınır. Məsələn, Ernest Tucker, Nadir Şahı "dahi bir hərbi komandan" kimi təsvir edir və onun hərbi bacarıqlarını Osmanlı, Rus və Hind imperiyalarına qarşı qazandığı qələbələrdə görür. O, lider kimi həm orduda, həm də dövlətdə güclü mərkəzləşdirmə siyasəti aparmışdır. Nadir şah Əfşarın özü isə , demək olar ki, eyni ərazi üzərində hökmranlıq etmiş Əmir Teymura heyranlıq duyurdu [6, s.89].

Nadir şahın hərbi karyerası, Əbivardın valisi və rayonun Əfşar türkmənlərinin lideri Baba Əli Bəyin xidmətində olduğu vaxt başlamışdır. Xorasanın şimal-şərq sərhədlərində xidmət edərkən odlu silahlarla və tayfa döyüşləri ilə tanış olmuşdur. O, yerli tayfa döyüşçüləri ilə tüfəngçi kimi döyüşürdü. Bacarığı və cəsarəti sayəsində mühafizəçilər dəstəsinin komandanlığı ona tapşırılmışdır [7, s.21].

O, Məşhəddə tanınmağa başlamışdı və orada həmin bölgənin hakimi, yəni bəylərbəyi Malik Mahmudun xidmətinə qəbul edilmişdi. Qısa müddət ərzində ona süvari dəstəsinin komandanlığı həvalə olundu və bu birliklə o, toqquşmalarda iştirak etdi və öz davranışı və cəsarətini nümayiş etdirmək imkanı tapdı. Bir neçə il ərzində mayor rütbəsinə yüksəldi və min nəfərlik süvari dəstəsinin komandanı oldu. O, bu vəzifədə 32 yaşına qədər qaldı və özünü qətiyyətli və cəsur bir lider kimi sübut etdi [4, s.73]. Lakin zaman keçdikcə Nadir bəzi səbəblərdən Malik Mahmudun sarayından uzaqlaşdı. Lockhartın qeyd etdiyi kimi, Nadirin saraydan uzaqlaşmasını vətənpərvərlik motivləri ilə, yəni öz ölkəsini azad etmək məqsədiilə , ya da Kalat bölgəsində hakimiyyətə yüksəlmək istəyi ilə izah etmək olar [7, s.43]. Nadirin davranışının arxasında duran motiv nə olursa olsun, onun liderlik və idarəetmə bacarığının olduğu açıq-aşkar görünürdü, çünki o, öz ətrafında bir çox ailələri və etnik qrupları toplaya bilmişdi. Bu vəziyyətdə, Nadir iki Əfşar başçısının yardımı ilə Malik Mahmudun devrilməsi üçün sui-qəsd planladı, lakin plan uğursuz oldu. Nəticədə Nadir, Malik Mahmudun qisasından qorxaraq Əbivarda qaçdı. Buraya gəlməkdə nadir xan Əfşarın əsas məqsədi, Məşhədə hücum etmək üçün ordu toplamaq idi.. Əbivarda olarkən o, Malik Mahmud, özbəklər və qonşuluqda olan Əbdali əfqanlarına qarşı hücumlarını davam etdirdi və bu bölgədə məşhurlaşmağa başladı [4, s.74].

Nadir şah, 1727-28-ci illərdə Şah Təhmasbin ordusunun generalı oldu və "Təhmasib Quli Xan" titulu aldı. 1729-cu ildə, Damgoun döyüşündə Abdali afqanlarına qarşı qazandığı qələbədən sonra, ona "kurci-bashi" adı verildi. Şah Təhmasib onu Xorasan, Kirman və Mazandaran feodları ilə təltif etdi. O, öz hərbi bacarıqları və liderlik qabiliyyəti ilə tezliklə tanınmağa başladı. Şah Təhmasib, Səfəvilər dövləti üçün böyük təhlükə yaradan Osmanlı və digər düşmənlərin hücumları ilə üzləşdiyində, Nadir xanı ordunun başına gətirməyi qərara aldı. Bu, Təhmasibin dövləti qorumaq üçün effektiv bir strategiyası idi. Nadir xan, ordunu müasir döyüş taktikaları ilə təchiz edərək, düşmənlərə qarşı uğurlu siyasət həyata keçirdi. Onun dövründə Səfəvilər dövlətinin gücü bir qədər bərpa olundu, lakin sonradan Nadir xan özünü daha müstəqil bir lider kimi göstərdi və Şah Təhmasibin nüfuzunu sarsıtdı. Bu, Səfəvi imperiyasının sonrakı tarixindəki güclü dəyişikliklərin başlanğıcı oldu [5].

Nadir şahın, xüsusilə hakimiyyətinə qarşı üsyan edənlərə qarşı zalım davranmış olsa da, dövrünün ən böyük hərbçisi olduğu barədə geniş bir razılıq var. Yaxın Şərq, Qafqaz, Türkmənistan və Hindistandakı hərbi uğurlardan əlavə, onun ən təsirli nailiyyəti İran dövlətinin ərazisini bərpa etməsi olmuşdur [7, s.269].

Minorski vurğulamışdır ki, 1739-cu ilin Hindistan Nadir şahın hərbi karyerasında yeni bir dönüş nöqtəsi olmuşdur. Əvvəlki müharibələr dövlətin sərhədlərini müdafiə etmək üçün aparılmışdırsa, Hindistanla müharibəsi yeni əraziləri və maliyyə mənbələrini ələ keçirmək üçün təşkil olunmuşdur [6, s.91].

Onun rəhbərliyi altında, döyüş nizam-intizamına uyğun olaraq düzgün təlim döyüş gücünü artırmaq və düşməni balanssız saxlamaq üçün həyati əhəmiyyət kəsb edirdi [7, s.37]. Ümumiyyətlə, o, hərbi metoduna uyğun olaraq geniş miqyaslı məşqlərə böyük əhəmiyyət verirdi [2, s.638].

Nadir şahın ordusunun döyüşçüləri yaxşı nizam-intizamlı və motivasiyalı idilər. Hətta qadınlar da silahlanmış və adi əsgərlər kimi fəaliyyət göstərmişdilər. Üstəlik, Hindistan və Mərkəzi Asiya müharibələrinin veteranları təcrübələri ilə döyüş qabiliyyətini artırmışdılar [4, s.155; 2, s.635].

Ordunun döyüşçüləri, xüsusilə bəzi etnik elementlər, məsələn, Xorasani döyüşçüləri, pis hava şəraitində, yəni çox soyuq qış günlərində belə döyüşə bilirdilər [7, s.43]. Döyüşçülər ay işığında gecə

döyüşməyə də öyrəşmişdilər [5]. Nadir şahın ordusu düşmənini uzun məsafələrə qədər izləyə və onun qiymətli əşyalarını ələ keçirə bilirdi [7, s.49].

Nadir şah qoşunlarının təşkil olunmasında Səfəvilər dövlətininin dövrünə aid olan bəzi özünəməxsus xüsusiyyətləri əks etdirmişdir. Bu səbəbdən bir çox araşdırmaçılar Nadir şahın qoşunlarının strukturunu Səfəvi qoşunlarından çox da fərqlənmədiyini haqqında məlumat vermişlər. Ancaq bu məlumat doğruyu əks etdirmir. Əldə olunan hərbi-texnoloji tərəqqi və müəyyənləşdirilmiş vəzifələrin xarakteri nəzərə alınaraq. Nadir şah Əfşar ordunun quruluşu və təşkili sahəsində əsaslı islahatlar həyata keçirdi. Səfəvilər dövlətinin dövründə mövcud olmayan dəniz qüvvələrinin yaradılması, Nadir şah Əfşarın bu sahədə əldə etdiyi mühüm nailiyyətlərdən biri idi. O, yeni bir qoşun növü təşkil etdi və onun maddi-texniki təminatını gücləndirmək üçün önəmli tədbirlər gördü. Nadir şah, iştirak etdiyi döyüşlərin şəraitinə uyğun olaraq zənburəklərin istifadəsinə xüsusi önəm verdi. Bundan başqa, briqada və ləşgərlərin strukturunda də müxtəlif yeniliklər baş verdi. Qoşunlarında dəstələr daimi və müvəqqəti olacaq formada birləşdirildi [8, s.532].

Nadir şahın dövləti əsasən hərbi qüvvələr üzərində qurulmuşdu. Buna görə də, Nadir şahın ətrafında daimi olaraq yaradılmış qoşun birləşmələri mövcud idi. Bu birləşmələrə cəzayirçilər, qorçular, qullar dəstələri, xüsusi qvardiya və həmişəkeşikçilər də daxil idi. Lakin, qoşunların kütləviliyini təmin etmək və genişmiqyaslı əməliyyatları həyata keçirmək məqsədilə qeyri-daimi əsaslarda da qoşun birləşmələri yaradılırdı. Nadir şah qoşunlara səfərbərlik zamanı həm könüllülük, həm də məcburiyyət prinsiplərindən istifadə edirdi. Nadir şahın hərbi uğurları artdıqca və qoşunların maddi təminatı stabilləşdikcə, ona könüllü qoşulmaq istəyənlərin sayı da çoxalırdı. Buna baxmayaraq, Nadir şah qoşunların sayını artırmaq üçün zorla səfərbərlik tədbirlərinə də əl atırdı. O, ələ keçirdiyi vilayətlərin və ərazilərin hakimlərinə və əhalisinə müəyyən sayda qoşun toplayıb mərkəzi hakimiyyətin ixtiyarına verməyi əmr edirdi [8, s.532].

Qaynaqlarda Nadir şahın qoşunlarında istifadə olunan "tip" və "ləşgər" terminləri ilə rastlaşmaq mümkündür. Bu struktur vahidləri hər biri bir neçə fövcün birləşməsindən ibarət idi. Qeyd etmək lazımdır ki, tip (briqada) struktur vahidi Səfəvi qoşunları ilə müqayisədə Nadir şah ordusuna əlavə edilmiş bir yenilikdir. Lakin həm tip, həm də ləşgər daimi strukturlar deyildilər. Hər hansı bir vəzifəni icra etmək üçün bir neçə fövc göndərmək lazım gələrsə, bu fövclərin müvəqqəti olaraq bir komandanlıq altında birləşdirilməsi zəruri olurdu. Belə hallarda, fövclər tip və ya ləşgər şəklində qruplaşdırılır və istedadlı bir sərkərdə bu strukturun rəhbəri olurdu. Başqa sözlə, fövclərdən fərqli olaraq, tiplər və ləşgərlər daimi olaraq mövcud deyildilər. Bu strukturların mütləq bir say tərkibi də yox idi; istər tip, istərsə də ləşgər 2-6 fövcdən təşkil oluna bilərdi [8, s.533].

Nadir Şahın ordusunun insan gücü mübahisəli bir mövzudur, çünki ədəbiyyatda müxtəlif rəqəmlər təqdim olunur. İllər ərzində qoşun sayındakı dəyişikliklər səbəbindən unikal və sabit bir rəqəm mövcud deyil. Hər halda, daim silah altında saxlanılan bir nüvə ordu və hərbi yürüşlərdə iştirak edən digər qoşunlar var idi. Nəticədə, təqribən bir qiymətləndirmə 50.000 ilə 200.000 arasında edilə bilər [3, s.113]. Axworthy, Nadir Şahın maaş müfəttişinin məlumatlarına əsaslanaraq, əmr altında olan qoşun sayının 375.000-ə çatdığını bildirir. Müxtəlif rəylərə baxmayaraq, Axworthy-nin vurğuladığı kimi, Nadir Şahın ordusu dünya üzrə digər ordulardan üstün bir döyüş gücünə malik idi [2, s.635, 639].

Nadir şah qoşunlarının xüsusiyyətlərindən biri, qoşun növləri, xüsusilə piyadalar və süvarilər arasındakı fərqlərin azalması idi. Tədqiqatçılar haqlı olaraq vurğulayırlar ki, Nadir şah qoşunlarında döyüşçüdən xidmətçiyə qədər heç kəs atsız və silahsız olmurdu. Nadir Şah döyüş zamanı ümumi yerləşdirməni belə tətbiq edirdi: piyadalar artilleriya tərəfindən əhatə olunurdu və süvarilər qanadlarda yerləşdirilirdi, yəni hücum üçün istifadə olunan döyüş forması. Süvarilər hücum əməliyyatlarında əsas qüvvə idi və bəzən düşmənin iki qanadına yönəldilirdi. Nadir Şah döyüş anlayışında atəş intizamına böyük önəm vermişdi [7, s.30].

Nadir şah Əfşarın qoşunlarının daha bir özəl xüsusiyyəti Azərbaycan-türk elementinin güclü olması idi. Nadir şah Əfşar ünsiyyəti Azərbaycan türkcəsində qururdu [8, s.535].

Güclü şəxsiyyəti ilə seçilən Nadir şah hadisələrin gedişatını təsadüflərə buraxmağı sevmirdi [4, s.110]. O, hərçənd ki, iddialı və macərapərəst idi, lakin hərbi məsələlərdə intizamı ciddi şəkildə qoruyurdu. Həm davranış qaydaları, həm də döyüş qaydalarına riayət etmək Nadir şahın müharibə anlayı-

şında həyati əhəmiyyət kəsb edirdi. Bununla yanaşı, sadə əsgərlərin rəğbətini necə qazanmağı da bilirdi. O, döyüşdən əvvəl öz əsgərlərinə ruhlandırıcı çıxışlar edirdi [4, s.91].

Altı fut boyu var idi və fövqəladə dərəcədə güclü və ucadan danışa bilirdi. Bu xüsusiyyətləri onun əmrlərinin uzun məsafələrdən eşidilməsinə üstünlük verirdi. Eyni anda müxtəlif məsələlərlə bağlı əmrlər vermək adətində idi və bu əmrləri katiblərinə diktə edirdi. O, bunu müntəzəm və sürətli şəkildə edirdi [4 , s.227].

Son olaraq, Nadir Şah Əfşarın ordusunun bu şərtlərə görə üstünlük qazandığını söyləmək olar: 1) uzun məşğələlər və hazırlıq sayəsində Əfşar ordusu inanılmaz qayda-qanun və əməkdaşlıq əldə etdi; 2) Nadir şah qoşunlarına yüksək səviyyədə döyüş biliyi və bacarıq aşılamışdı; bu, onun ordusunu rəqib ordulardan yaxşı mənada ayıran xüsusiyyət idi; 3) qoşunlar daha çox çeviklik və manevr etmə bacarığı ilə seçilirdi ki, bu da onların döyüş meydanında daha elastik və ustalıqla hərəkət etmələrini təmin edirdi [9, s.37].

Nadirin döyüş aparmaq taktikasının bəzi xüsusiyyətləri belə ümumiləşdirilə bilər: Regionun kəşfiyyatı və qoşunların yerləşməsi üçün relyef xüsusiyyətlərindən ən yüksək dərəcədə faydalanma.; 2) Döyüş zamanı qoşunların ardıcıl manevrləri. 3)Avtomatizasiya səviyyəsinə çatdırılmış topçu, piyada və süvari qoşunlarının koordinasiyalı hərəkətləri. Manevr edən artilleriya düşmən ordularından daha müstəqil və əhəmiyyətli rol oynayırdı; 4) Nadir ustalıqla cinah üstünlüyü yaradaraq, bununla da düşmənin müdafiə xəttini uzadır və onu yarmaq üçün şərait formalaşdırırdı. 5.Taktiki incəliklərdən biri də əsas qüvvələrin bacarıqla gizlədilməsi idi.. "Nadir şahın bəzi hərbi qərarları – yüngül süvari və tüfəngçilərin önə çəkilməsi, qoşunların manevr bacarığının artırılması, həlledici taktiki anadək düşməni zəiflətmək üçün güclü topçu korpusu, ağır süvari qüvvələrinin böyük ehtiyatı – müəyyən dərəcədə öz dövrünü qabaqlamışdı. Nadir şah taktiki vəzifələri imperiya quruculuğu və bu prosesə uyğun səylər kontekstində qəbul edilən strateji məqsədgüdmələr çərçivəsindən kənarda nəzərdən keçirmirdi [9, s.37].

Nəticə. Nadir Əfşar Osmanlı imperiyası ilə müharibə etmək üçün ilk öncə ordusunu gücləndirməli idi. Ordusunu gücləndirməyə şərait yaradan səbəblər bunlar idi: Orduda bəzən intizam pozuntuları baş verirdi, bu da döyüşlərin səmərəliliyini azaldırdı. Qida, silah və digər resursların çatışmazlığı, ordunun döyüşdəki iradəsini zəiflədirdi .Bəzi döyüşlərdə əsgərlərin motivasiyası aşağı olurdu, bu da onların döyüşlərdəki performansına təsir edirdi. Əsgərlərdə təlim əksikləri və s.

Nadir şah ordusunu güclədirmək üçün zəif cəhətləri aradan qaldırmaq üçün bu tədbirləri görməyə başladı. Nadir, sərt qaydalar tətbiq edərək ordunun intizamını artırdı. Düşmənlə döyüşlərdə daha çevik taktikalara keçərək, ardıcıl manevrlərə üstünlük verdi. Ordunun ehtiyaclarını qarşılamaq üçün təchizat sistemlərini gücləndirdi. Resursların vaxtında və effektiv şəkildə təmin olunmasını təşkil etdi. Əsgərlərə mükafatlar verərək və döyüş ruhunu yüksəldərək, motivasiyanı artırmağa çalışdı.Ordusunu müasir döyüş taktikaları ilə təchiz etmək üçün geniş təlim proqramları həyata keçirdi. Bu, əsgərlərin döyüş bacarıqlarını artırdı. Nadir şahın bu tədbirləri, ordusunu gücləndirməyə və zəif cəhətlərini aradan qaldırmağa kömək etdi, nəticədə onun ordusu dövrünün ən güclü qüvvələrindən biri oldu.

Nadir şah Əfşaın yeni qoşun növü tərtib etməsi ordunun təsir dairəsini artırmış oldu. Xüsusilə, Fövclərin yaradılması, Əfşar ordusunun effektivliyini artırdı və Nadir şahın müharibələrdəki müvəffəqiyyətinin əsas səbəblərindən biri oldu. Bu birliklər, ordunun strukturunu daha da gücləndirdi və müxtəlif müharibələrdə strateji üstünlük qazandırdı Fövc birlikləri, ordunun daha səmərəli və təşkilatlanmış şəkildə fəaliyyət göstərməsini təmin etdi. Bu, döyüşlərdə daha yüksək performans əldə etməyə imkan verdi. Fövclərin müvəqqəti olaraq birləşdirilməsi, müxtəlif döyüş dəstələrinin koordinasiyasını asanlaşdırdı. Bu, döyüş zamanı çeviklik və effektivliyi artırdı.

Fövc birlikləri, ordu içində intizamın artırılmasına və nizamın qorunmasına kömək etdi. Bu, döyüş zamanı əsgərlərin disiplinli və koordinasiyalı şəkildə hərəkət etmələrini təmin etdi. Fövclərin birləşdirilməsi, fərqli taktikaların tətbiqini mümkün etdi. Bu, ordunun döyüş strategiyalarını zənginləşdirdi və düşmənə qarşı daha təsirli hücumlar həyata keçirməyə imkan verdi.

Nadir şah daimi şəkildə mövcud olan qoşun dəstələri yaratmışdı. Bu dəstələrə cəzayirçilər, mühafizəçilər, qullar, xüsusi qvardiya və daimi gözətçilər daxil idi.

Döyüş meydanlarında qazandığı uğurlar, Əfşar imperiyasının sərhədlərini genişləndirmək və dövlətiçiliyi bərpa etmək üçün əlverişli imkanlar yaratdı. Eyni zamanda, onun hərbi strategiyaları və liderlik keyfiyyətləri, gələcək nəsillər üçün bir örnək olmuşdur. Nadir Şahın ordusu, yalnız dövrünün

siyasi xəritəsini dəyişdirməkdə deyil, həm də müasir hərbi strategiyaların inkişafında mühüm rol oynamışdır. Onun müharibələrdəki taktiki geniusu və ordusunun gücü, Nadir Şahın adı ilə bağlı olaraq hələ də tədqiq edilir və öyrənilir. Nadir Şahın ordusu, XVIII əsr hərbi tarixində əvəzsiz bir irs qoymuşdur. Bu irs gələcək tədqiqatçılar tərəfindən öyrənilməli və təbliğ edilməlidir.

ƏDƏBİYYAT

1. Axworthy, Michael. Nader shah and Persian Naval Expansion in the Persian Gulf,1700-1747, "Jounal of The Royal Asiatic Society"- 2011, 31 s.
2. Axworthy, Michael. "The Army of Nader shah". "Iranian Studies", 2007, 639 p.
3. Arunova, M. R. – Eşrefyan, K.Z. Nadir Şah-I Avşar, İstanbul "Çev. Nergize Turaeva, Selenge Yayınları", 2015, 113 s.
4. Fraser James, History of Nader shah 1742, "Jounal of The Royal Asiatic Society" 1899, 227 s.
5. Encyclopaedia Iranica. - https://www.iranicaonline.org/articles/iran-ii1-pre-islamic-times [10.02.2025].
6. Kubilayhan Erman, Afshar Nader Shah. Military Leadership, Strategy and the Armed Forces During his Reign. "Çanakkale Araştırmaları Türk Yıllığı", 2018. 89, 91s.
7. Lockhart, Nadir Shah critical study base mainly upon contemporary sources,1938, 21,30-37,43,49s.
8. Mehman Süleymanov. Nadir Şah. Bakı. 2005, 532, 533, 535s.
9. Rəna Mahmudova. Nadir Şah Əfşarın hərbi-siyasi fəaliyyəti və onun islahatları farsdilli mənbələrin əsasında. Bakı, 2024, 37s.

ГУЛЬСУМ ТАГИЗАДЕ
Магистрант Западно-Каспийского университета

АРМИЯ НАДИРА ШАХА: САМАЯ МОЩНАЯ ВОЕННАЯ СИЛА XVIII ВЕКА

Один из самых выдающихся и могущественных военных лидеров XVIII века, Надир-шах Афшар (1688-1747), благодаря своей сильной воле сумел создать великую армию, способную бросить вызов всему миру, и тем самым навсегда вписал своё имя в историю. Военная деятельность Надир-шаха началась, когда он находился на службе у Баба Али-бека. В то время, когда государство Сефевидов ослабевало, Надир-хан Афшар благодаря своему военному мастерству сумел создать мощную армию, чтобы противостоять внешним врагам. Полностью захватив власть, Надир, став правителем династии Афшаров, блестяще освоил военные тактики и стратегии своего времени. Он превратил свою армию в одну из самых эффективных и мощных военных сил эпохи. Его военные кампании в Ираке, Центральной Азии, на Кавказе и в Индии предоставили отличные возможности для демонстрации его военного гения. Успех военной тактики Надир-шаха заключался в эффективной разведке территории, дисциплинированных маневрах войск во время боёв, применении удачных тактик и стратегическом размещении необходимых сил. В данной статье, ссылаясь на последние научные исследования, а также используя методы анализа, оценки и сравнения, подробно изучены структура армии Надир-шаха, его тактика ведения боевых действий и стратегия войн.

Ключевые слова: Надир Шах Афшар, Армия, Военная стратегия, Лидерство.

GULSUM TAGHIZADEH
Master student of Western Caspian University

NADER SHAH'S ARMY: THE MOST POWERFUL MILITARY FORCE OF THE XVIII CENTURY

One of the most brilliant and powerful military leaders of the 18th century, Nadir Shah Afshar (1688-1747), is a great figure who made a name for himself in history by building a formidable army

that could challenge the entire world with his strong will. Nadir Shah's military career began when he was in the service of Baba Ali Bey. At a time when the Safavid Empire was weakening, Nadir Khan Afshar, through his military skills, was able to form a powerful army to combat foreign enemies. After fully seizing power, Nadir became the ruler of the Afshar dynasty, and he masterfully incorporated the military tactics and strategies of his era. He transformed his army into one of the most effective and powerful military forces of the time. His campaigns in Iraq, Central Asia, the Caucasus, and India provided excellent opportunities to prove his military genius. The success of Nadir Shah's military tactics was largely due to his use of territorial reconnaissance, the disciplined maneuvers of his troops during battles, the implementation of successful tactics, and the strategic positioning of necessary forces. In this article, we have conducted a detailed examination of the structure of Nadir Shah's army, his battle tactics, and war strategies by referring to recent research works and using analysis, evaluation, and comparison methods.

Keywords: Nadir Shah Afshar, Army, Military Strategy, Leadership

Məqalənin redaksiyaya daxil olduğu tarix: 10 fevral 2025-ci il.
Məqalənin çapa qəbul olunma tarixi: 15 may 2025-ci il.
Rəyçilər: t.e.d. Qabil Əliyev, t.e.d. İsmayıl Məmmədov.